# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
1463 saylı 31 avqust 2012-ci il
tarixli əmri ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
ÜMUMİ ŞÖBƏ
ƏSLİ İLƏ DÜZDÜR

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 060302 – Sənətşünasıq**

**BAKI – 2012**

# 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **060302 – Sənətşünaslıq** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

1.2. Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri **060302 – Sənətşünaslıq** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

1.3. Strukturda istifadə olunan işarələr:
**ÜK** – ümummədəni kompetensiyalar
**PK** – peşə kompetensiyaları

# 2. 060302 – Sənətşünaslıq ixtisasının xarakteristikası

2.1. Təhsil Proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| **İxtisasın şifri və adı** | **Verilən elmi-ixtisas dərəcəsi** | **Əyani forma üzrə təhsil müddəti** | **Kreditlərin sayı** |
|---|---|---|---|
| **060302 – Sənətşünaslıq**<br><br>**İxtisaslaşmalar:**<br>*- Mədəniyyətin nəzəriyyəsi*<br>*- Mədəniyyətin tarixi*<br>*- Sosial kulturologiya*<br>*- Azərbaycan mədəniyyətinin tarixi*<br>*- Tətbiqi kulturologiya*<br>*- İncəsənət əsərlərinin bərpası və ekspertizası*<br>*- Təsviri incəsənət tarixi və nəzəriyyəsi* | Magistr | 2 il (qiyabi forma üzrə təhsil müddəti 6 ay artıqdır) | 120 |

# 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

3.1. **Magistrin ixtisas xarakteristikası.**
Magistr nəzəri prinsip və tədqiqat metodları haqqında ümumi təsvirə və geniş biliyə malik olmalı, peşə hazırlığı tələb edən elmi-tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır.

3.2. **Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

3.2.1. Məzun aşağıdakı ümummədəni kompetensiyalara (ÜK) yiyələnməlidir:
- kollektivdə işləmək **(ÜK-1);**
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq **(ÜK-2);**
- beynəlxalq arenada işləmək **(ÜK-3);**
- hüquqi biliklər və etik normalara malik olmaq **(ÜK-4);**
- yeni ideyalar irəli sürmək **(ÜK-5);**
- müstəqil işləmək **(ÜK-6);**
- elmi tədqiqat və yaradıcılıq, pedaqoji işlərinin təşkilində, kollektivin idarə olunmasında bacarıq və vərdişlərə malik olmaq **(ÜK-7);**

- peşə fəaliyyəti ilə əlaqədar işi təşkil etmək və planlaşdırmaq **(ÜK-8).**

3.2.2. Məzun aşağıdakı peşə kompetensiyalarına **(PK)** yiyələnməlidir:

***Elmi-tədqiqat sahəsi üzrə:***

- dekorativ sənətin tədrisində və yaradıcılıq prosesində modelləşdirmə üsullarından istifadə etmək **(PK-1);**
- yaradıcılıq prosesində sənətşünaslıq üzrə nəzəri biliklərdən istifadə etmək **(PK-2);**
- elmi-tədqiqat və yaradıcılıq işlərini planlaşdırmaq və aparmaq **(PK-3);**
- elmi axtarışların nəticələrinin və yaradıcılıq işlərinin təqdimatını hazırlamaq **(PK-5);**
- ixtisasın ümumi mənzərəsini təsvir etmək **(PK-6);**

***Pedaqoji sahə üzrə:***

- ümumtəhsil, texniki-peşə, orta ixtisas təhsil müəssisələrində və ali təhsilin bakalavriat səviyyəsində ixtisas fənlərinin tədrisini aparmaq **(PK-7);**
- elektron kitabxanalardan, referativ jurnallardan, internetdən məlumatlar əldə etmək **(PK-8);**
- tədris, təlim və ya digər üsullarla öz biliklərini başqasına ötürə bilmək **(PK-9);**
- tədris prosesində ixtisas üzrə yaradıcılıq bacarıqlarını aşılamaq və sənətşünaslıq baxımından təhlil aparmaq **(PK-10);**
- fənnin tədrisində kompyuter texnologiyasından istifadə etmək **(PK-11);**
- fənlə bağlı termin və ifadələrin tətbiqi bacarığına malik olmaq **(PK-12);**
- müasir təlim texnologiyalarını tətbiq etmək **(PK-13);**

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- ümumi və fərdi iş formalarını təşkil etmək **(PK-14);**
- fənnin tədrisi ilə bağlı bilikləri təqdim etmək və onları iş şəraitinə adaptasiya etmək **(PK-15);**
- qrupların elmi-tədqiqat və yaradıcılıq işlərinə rəhbərlik etmək **(PK-16);**
- ixtisas biliklərini düzgün və yığcam ifadə etmək **(PK-17);**
- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etmək **(PK-18);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək və əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak edə bilmək **(PK-19);**
- innovativ yanaşma tələb edən mürəkkəb və gözlənilməz şəraitlərdə müstəqil şəkildə fəaliyyət göstərmək **(PK-20);**
- təşkilat və ya qrupların strateji fəaliyyəti ilə bağlı məsuliyyət daşımaq **(PK-21);**
- mürəkkəb şəraitlərdə etik qaydalara uyğun şəkildə davrana bilmək, şəxsi davranışların etik aspektləri, imkanları, məhdudiyyət və sosial rolunu anlamaq, fəaliyyət və təhsil sahəsi ilə bağlı məsələlərdə əsaslandırılmış qiymətləndirmə aparmaq **(PK-22);**
- davamlı təlim və peşəkar inkişafla bağlı şəxsi və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil təhsil üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək **(PK-23);**
- müvafiq fəaliyyət və metodları təklif etmək və planlaşdırmaq, onların qısa və uzunmüddətli nəticələrini təhlil etmək **(PK-24);**
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri yaradıcı şəkildə müəyyənləşdirmək və ortaya qoya bilmək, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək **(PK-25);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin potensial nəticələri müəyyənləşdirmək və/və ya qiymətləndirə bilmək **(PK-26);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı şəxsi davranışlarını tənqidi şəkildə qiymətləndirmək **(PK-27).**

## 4. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə və təhsilin məzmununa qoyulan minimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası.

**4.1.1. 060302 – Sənətşünaslıq** ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:
- elmi-tədqiqat sahəsi üzrə;
- pedaqoji;
- təşkilati-inzibatçılıq və s.

**4.1.2. Hazırlıq səviyyəsinə qoyulan tələblər:**

*Elmi-tədqiqat və yaradıcılıq sahəsi üzrə:*
- ixtisas üzrə elmi, təşkilati və tətbiqi məsələlərin həllində modelləşdirmə üsullarından istifadə etmək;
- pedaqogikanın, xüsusi qabiliyyət tələb edən 060302 Sənətşünaslıq ixtisasının əməli-təcrübi əsaslarından, incəsənət tarixi və nəzəriyyəsindən, tədrisi metodikasının nailiyyətərindən, qabaqcıl təcrübədən istifadə etməklə fənnin tədrisi metodikası sahəsində aparılan elmi-tədqiqat işlərini təhlil etmək və nəticələri ümumiləşdirmək;
- konfranslar, seminarlar, simpoziumlar hazırlamaq və keçirmək;
- elmi nəşrlər hazırlamaq və redaktə etmək.

*Pedaqoji sahə üzrə:*
- mühazirə oxumaq;
- seminar, məşğələ dərslərini aparmaq;
- pedaqoji təcrübəyə rəhbərlik etmək;
- müasir proqram təminatından istifadə etmək;
- ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etmək;
- ixtisasın tədrisinə dair informasiyaların toplanması və emalında İKT-dən istifadə etmək və s.

*Təşkilati-inzibatçılıq sahəsi üzrə:*
- elmi-tədqiqat, yaradıcılıq və tədris kollektivlərinin işini təşkil etmək;
- fəaliyyət nəticələrini proqnozlaşdırmaq üçün elmi yenilikləri tətbiq etmək;
- qəbul olunmuş qərarların nəticələrini kəmiyyət və keyfiyyətcə qiymətləndirmək və s.

### 4.2. Təhsilin məzmununa qoyulan minimum tələblər.

□ İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənnin kodu və adı | Fənn üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları |
|---|---|---|---|---|---|
| **Təhsil hissəsi** | | | | | |
| **MHF-B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr **bilməlidir:**<br>- ixtisasa aid pedaqoji ədəbiyyatı xarici dildə oxuyub başa öyrənməyi, | 14 | **MHF – B01**<br>*Xarici dil*<br><br>**MHF – B02**<br>*Ali məktəb pedaqogikası* | 6<br><br><br>4 | **ÜK-1**<br>**ÜK-2**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-6** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | düşməyi;<br>- Azərbaycanda ali təhsil sistemini, təlim prosesi və təhsilin məzmununu, elmi-tədqiqat (müəllim və tələbə) işinin metodikasını;<br>- psixologiyanın metodlarını, psixologiyanın əsas istiqamətlərini, qarşılıqlı münasibətlərin psixologiyasını, tələbə psixologiyasını və s.<br><br>**bacarmalıdır:**<br>- ixtisasa aid xarici dildə elmi ədəbiyyatı tərcümə etməyi, annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı;<br>- məşğələləri planlaşdırmağı və aparmağı, elmi-tədqiqat işini yerinə yetirməyi, eksperiment aparmağı və nəticələri tətbiq etməyi;<br>- hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmağı.<br><br>**yiyələnməlidir:**<br>- xarici dildə lüğətin köməyilə oxumaq və yazmaq vərdişlərinə;<br>- ali təhsil müəssisəsində tədris və tədqiqat işləri aparmağa;<br>- tələbələrə psixoloji yanaşma keyfiyyətlərinə və s. | | **MHF–B03**<br>*Yaradıcılıq psixologiyası*<br><br>**MHF – B04**<br>*Seçmə fənn** | 2<br><br><br><br>2 | **ÜK-7**<br>**ÜK-8**<br>**PK-12** |
| **MİF-B00** | **İxtisas (ixtisaslaşma) fənlər bölümü**<br>Bu fənnin öyrənilməsi nəticəsində təhsil alan<br>**bilməlidir:**<br>- mədəniyyət və incəsənət tarixinin əsas problemləri olan üslub və üslublaşdırmanın, incəsənət tarixinin əsas mərhələlərinin aparıcı məqamlarını;<br>- tədris prosesində mədəniyyət sistemi, əsas baxışları;<br>- mədəniyyət sisteminin üç tərkib hissəsini;<br>- incəsənət tarixinin əsas problemləri sırasında incəsənətin təkamül problemlərini;<br>- sənətşünaslığın və dinin qarşılıqlı münasibətini;<br>- sənətşünaslıq və dövlət, incə-sənətin milliliyi problemlərini;<br>- sənətşünaslıq tarixinin üslub təsnifatının problemlərini;<br>- üslubun fərdi, milli, dövrə aid (epoxal) tərəflərini;<br>- üslubun formalaşması üçün olan zəmin – tarixi, iqtisadi və ictimai şəraitin zəruriliyini;<br>- üslublaşmanın istifadə meyarları, onun | **76** | **MİF-B01**<br>*Təsviri sənətin müasir problemləri*<br><br>**MİF-B02**<br>*Təsviri sənətin tarixi və metodologiyası*<br><br>**MİF-B03**<br>*Ali məktəbin müəyyən etdiyi fənn*<br><br>**MİF-B04**<br>*İxtisaslaşmaya ayrılan fənlər***<br><br>**MİF-B05**<br>*Seçmə fənn** | 4<br><br><br><br>2<br><br><br><br>4<br><br><br><br>42<br><br><br>24 | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15**<br>**PK-16**<br>**PK-17**<br>**PK-18**<br>**PK-19**<br>**PK-20**<br>**PK-21**<br>**PK-22**<br>**PK-23**<br>**PK-24**<br>**PK-25**<br>**PK-26**<br>**PK-27** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | üslubdan fərqini;<br>- məqsəd və imkanlarını;<br>- tədris zamanı memarlığın, heykəltəraşlığın, rəngkarlığın əsas problemlərini;<br>- sənətşünaslıqda ənənə və millilik problemini;<br>- sənətşünaslığın problemləri qis-mində postmodernizm, primitivizm, qrotesk kimi kateqoriyaların tədqiqini;<br>- konseptual incəsənətin müasir cərəyanları olan bodi-art, performans, lend-art, video-art, xeppening, instalyasiya və b. tətbiq sferalarını;<br>- müasir sənətşünaslığın tərkib hissələri olan incəsənət tarixi, incəsənət nəzəriyyəsi və bədii tənqidin mahiyyətini, onların sıx əlaqəsini və qarşılıqlı asılılığını;<br>- tədris prosesində müasir sənətşünaslığın predmeti, sərhədləri və üsullarını, onların sıx əlaqəsi və qarşılıqlı asılılığını;<br>- abidələrin qiymətləndirilməsi və seçilməsinin əsas meyarları, onların atributiv problemlərini;<br>- sənət əsərlərinin qiymətlən-dirilməsində keyfiyyət məsələsinə aparıcı məsələ kimi baxılması, semantik yanaşmanın istənilən əsərin tədqiq olunmasının vacibliyini;<br>- tədris prosesində sənətşünaslığın formal-üslubi metodu, mədəni-tarixi üsulunu;<br>- ikonoqrafiya və ikonologiyanın prinsipləri və əsas nümayəndələri haqqında məlumatları;<br>- bədii tənqidin vəzifə və üsullarını;<br>- XX əsrin incəsənətində klassik ənənələrə yeni baxış, yeni incəsənət istiqamətlərinin yaranması, fərqli ifadə vasitələrinin axtarışları zəminində meydana gəlməsini;<br>- hər dövrün özünəməxsus rəssam obrazını, rəssamın predmetə, onun yeni formasına, materialına olan yeni baxışını;<br>- bütün dövrlərin sənət əsərlərini, janr və növlərini əhatə edərək ümumdünya incəsənət inkişafını;<br>- qrafikanın dekorativ-tətbiqi sənət və memarlıqla olan əlaqəsini;<br>- XX əsrin əsas bədii cərəyanlarını;<br>- tədris zamanı XX əsrin təsviri sənətində yeni dünyagörüşü və incəsənət əsərinə yeni münasibətin formalaşmasını, bu prosesin yeni üslub | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | yaratmaq uğrunda təsvir üsulları axtarışını;<br>- təcrübi sınaqlarla xarakterizə olunması məsələlərinin araşdırılmasını;<br>- incəsənətdə fiqurativliyi inkar edən istiqamətlərin və realizmin paralel mövcudluğu haqda məlumatın çatdırılmasını;<br>- XX əsrin bədii dünyagörüşünün əsas prinsipləri olan fərdiliyin və yaradıcılıq azadlığının araşdırıl-masını;<br>- burada XIX əsrin axırı – XX əsrin əvvəllərində fəaliyyət göstərən "Ar nuvo" təşkilatı, kubizm, futurizm, dadaizm, sürrealizm və s. cərəyanlar haqqında məlumatları;<br>- bu sırada M.Düşan və F.Pikabiyanın, S.Dali və M.Ernstin, X.Mironun, M.Şaqalın əsərlərini;<br>- XX əsr Fransız konstruktivizminin lideri Le Korbüzyenin şəhərsalma prinsiplərinin araşdırılmasını;<br>- II Dünya müharibəsindən sonra İtaliya incəsənətində "Arte povere" cərəyanının inkişafını;<br>- R.Quttuzo, A.Pissinato, J.Mantsunun yaradıcılığını;<br>- XX əsrdə Latın Amerikası ölkələrində bədii dünyanın fəallaşmasına diqqət yetirilməsini;<br>- Meksika incəsənətinin xüsusiy-yətlərini;<br>- O.Nimeyerin yaradıcılığının təhlilini;<br>- tədris prosesində abstrakt incəsənətin əsas ifadə üsullarını;<br>- rus avanqardının (Maleviç, Knadinski, Lisitski və b.) əşyasız incəsənətin təkamülündə rolunu;<br>- abstraksionistlərin əşyasızlığına əks olan yeni modernist incəsənət məktəbinin – pop-artın yaranmasını, bu cərəyanın təmsilçiləri olan R.Rouşenberq, C.Cons və b. yaradıcılığının təhlilini;<br>- fənnin tədrisi zamanı ABŞ memarlığının kosmopolitik xarakterini;<br>- F.L.Rayt, Foster, M.Yamasakinin və b. yaradıcılığının təhlilini;<br>- miniatür sənətinin yaranması, mənbəyi, inkişaf mərhələlərini;<br>- miniatür sənətinin aktual problemlərini;<br>- Ərəb, Orta Asiya, Azərbaycan, Hindistan, Əfqanıstan, Türkiyə, Uzaq Şərqin Çin və Yaponiya miniatür sənətini;<br>- xalçaçılıq sənətinin yaranma tarixini; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - xalçaçılığın insanların həyat tərzi, məişəti,ideologiyasına təsirini;<br>- xovsuz və xovlu xalçaların növ müxtəlifliyinin təsnifatını;<br>- xalçaların toxunma texnolo-giyasını;<br>- xalçaların ornamental həllinin əsas sxemləri tədqiqini;<br>- regional xalça qruplarını araşdırmağı;<br>- xalça növlərinin bədii tərtibatı və texnoloji xüsusiyyətlərini;<br>- məşhur xalçaçı rəssamlarımız olan L.Kərimovun, K.Əliyevin, E.Mikayılovun, A.İsmayılovun yaradıcılığını;<br>- Azərbaycanın müasir xalça məmulatları: çantalar, kəmərlər və s. məlumatı;<br><br>**bacarmalıdır:**<br>- incəsənət əsərlərinin yaranma dövrünü müəyyənləşdirməyi;<br>- əsərin tarixini, üslubunu, müəllifini və maddi dəyərini müəyyən etməyi;<br>- incəsənət əsərinin maddi-texniki vəziyyətini, əmlak statusunu, məzmun və formasını müəyyən etməyi ;<br>- incəsənət əsərinin tarixi və maddi dəyərinin müəyinəsini;<br>- incəsənət əsəri barədə informasiya banklarının təhlili çərçivəsində muzey, auksion qalereyaları, rəssamlar cəmiyyətinin ,Mədəniyyət nazirliyinin, şəxsi qalereyaların və sənətkarların elektron saytlarında əsər barədə məlumat əldə etməyi;<br>- əldə etdiyi məlumatın təhlilini aparmağı;<br>- qrafika, rəngkarlıq, heykəltəraşlıq və dekorativ-tətbiqi sənət əsərlərinin ekspertizasını aparmağı;<br>- bədii metal və zərgərlik əsərlərinin bədii keramika, xalça və xalça məmulatlarının, bədii parça və geyim əsərlərinin, bədii ağac yonma və ağac əsərlərinin ekspertizasını;<br><br>**yiyələnməlidir:**<br>- sənətşünaslığın tədrisi metodika-sının müasir problemləri ilə bağlı araşdırma-lar aparmaq vərdişlərinə;<br>- sənətşünaslığın tədrisi meto-dikasının tarixi və metodologiyasına dair mövcud tədqiqatlar üzərində araşdırma vərdişlərinə;<br>- sənətşünaslığın tədrisi tarixi ilə bağlı tədqiqat aparmaq vərdişlərinə;<br>- sənətşünaslığın tədrisi ilə bağlı | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | modelləşmə üsullarına;<br>- müasir üsullardan və İKT-dən istifadə etmək vərdişlərinə;<br>- müasir Azərbaycan incəsənətinin bütün növləri, onların qarşılıqlı əlaqəsini və cəmiyyət tərəfindən qəbulu, onun aparılacaq tədqiqatlar əsasında yaradıcılıq və araşdırıcılıq qabiliyyətlərinə. | | | | |
| **MET-B00** | **Elmi tədqiqat işləri**<br>Magistr elmi-tədqiqat işini yerinə yetirməklə aşağıdakıları bilməli və bacarmalıdır:<br>- elmi-tədqiqat işlərini planlaşdırmağı;<br>- tədqiqat mövzusu seçməyi;<br>- ədəbiyyat siyahısının tərtibini;<br>- elmi-tədqiqat işi aparmağı;<br>- elmi-tədqiqat işinin nəticələrini təhlil etməyi, onu digər müəlliflərin nəticələri ilə müqayisə etməyi;<br>- alınmış nəticələrin praktik əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməyi;<br>- elmi-tədqiqat işinin gələcəkdə davam etdirilməsi imkanlarını müəyyənləşdi-rməyi;<br>- yerinə yetirilmiş tədqiqat işinin müdafiəsini;<br>- elmi-tədqiqat işinin nəticələrinin çap üçün hazırlanmasını;<br>- elmi-tədqiqat, yaradıcılıq və elmi pedaqoji təcrübələrdə iştirak etməyi, onların nəticələrini ümumiləşdirmə-yi və magistrlik dissertasiyasında istifadə etməyi və s. | **30** | Elmi tədqiqat təcrübəsi<br><br>Elmi pedaqoji təcrübə<br><br>Magistr dissertasiyasının hazırlanması və müdafiəsi | **6**<br><br>**6**<br><br>**18** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15**<br>**PK-16**<br>**PK-17** |
| | **Kreditlərin ümumi sayı** | **120** | | **120** | |

**Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*
***İxtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**4.3.** İxtisas üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 94
o cümlədən:
- nəzəri təlim – 45 həftə
- təcrübələr (elmi-tədqiqat və elmi-pedaqoji) – 8 həftə
- imtahan sessiyaları – 15 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi – 12 həftə
- tətillər – 14 həftə

## 5. Maddi-texniki tədris bazası və kadr potensialı

5.1 Ali təhsil müəssisəsinin **060302 – Sənətşünaslıq** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompyuter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalar, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

5.2 Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

5.3 Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı və ya elmi dərəcəsi olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

6.1 Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

6.2 Magistr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

6.3 **060302 – Sənətşünaslıq** ixtisası üzrə magistr hazırlığında elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında keçirilə bilər.

## 7 Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

7.1 Yekun dövlət attestasiyası magistrlik dissertasiyasının müdafiəsindən ibarətdir. Dissertasiyanın məzmununa, həcminə, strukturuna qoyulan tələblər və onun müdafiəsi qaydaları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

7.2 Təhsilalanların biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında həyata keçirilir.

7.3 Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali elmi-ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktoru

_______________A.Mehrabov

«____» ___________ 2012-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ali və orta ixtisas təhsili şöbəsinin rəisi

_____________İ.Mustafayev

«____»__________2012-ci il

Mədəniyyət və incəsənət ixtisaslar qrupu üzrə Dövlət Təhsil Standartları hazırlayan işçi qrupun sədri

_______________V.Məmmədova

«___» ___________ 2012-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodiki-Şurasının «İncəsənət» bölməsinin sədri

_________________ Z.Qafarova

«___» ______________ 2012-ci il